**Vergilər Nazirliyi İKT xidmətlərindən istifadə edən aparıcı dövlət qurumudur...**

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin İnformasiya cəmiyyətinin inkişafı şöbəsinin müdiri İsfəndiyar Əliyev:

- Bildiyiniz kimi, 6 dekabr rabitə informasiya texnologiyaları işçilərinin peşə bayramıdır. Bunula əlaqədar olaraq RİTN-də müxtəlif müsabiqələr həyata keçirilir. Bunlardan biri də «Ən yaxşı dövlət elektron xidməti» nominasiyası üzrə müsabiqənin keçirilməsdir. Müsabiqə iki mərhlədə keçirilir: Birinci mərhələdə online səsvermə keçirilir. İkinci mərhələdə isə müsabiqə ilə bağlı RİTN-də yaradılmış komissiya tərəfindən müsabiqəyə təqdim olunmuş e-xidmətlər sosial əhəmiyyətinə, istifadəçi əhatəsinə və bu kimi kriteriyalara görə qiymətləndirmə aparılır. Bu ilki müqasabiqə VN-nin «Kommersiya hüquqi şəxslərin e-qeydiyyatı» xidməti birinci yerə layiq görülmüşdür. Bu xidmət çox böyük sosial əhəmiyyət kəsb edir və cəmiyyəti maraqlandıran xidmətlərdəndir.

«RİTN dövlət və özəl sektorda informasiya və kommunikasiya infrastrukturunun yaradılması, xidmətlərin genişləndirilməsi, vətəndaşların və sosial institutların məlumat almaq, onu yaymaq və istifadə etmək kimi hüquqlarının təmin edilməsi ilə əlaqədar müvafiq informasiya mühitinin yaradılması üçün dövlət siyasətinin həyata keçirilməsində fəal rol oynayır. Nazirlik, eyni zamanda, dövlət idarə və müəssisələrində yeni texnologiyaların tətbiq olunmasında, bu sahə üzrə həyata keçirilən tədbirlərin monitorinqinin parılmasında iştirak edir. Dövlət orqanlarının göstərdiyi elektron xidmətlərin vəziyyətini təhlil etmək, onların fəaliyyətini qiymətləndirmək də bu tədbirlərin əsas istiqamətlərindəndir.

Vergilər Nazirliyi tərəfindən elektron xidmətlərin tətbiqinin genişləndirilməsi ilə bağlı həyata keçirilən davamlı tədbirlərin əhəmiyyətindən danışan İsfəndiyar Əliyevin sözlərinə görə, nazirlik hazırda İKT xidmətlərindən istifadə edən aparıcı dövlət qurumu sayılır. Bu qurum həm elektron formada xidmət göstərilməsinə hazırlıq vəziyyəti, həm də təqdim olunan xidmətlərin keyfiyyətinə görə mühüm üstünlüyə və yaxşı təcrübəyə malikdir: «Bu gün Vergilər Nazirliyinin istifadəçilər üçün tətbiq etdiyi elektron xidmətlər həm vətəndaşlarla operativ əlaqələrin yaradılmasını, həm də vergi xidməti strukturları arasında informasiya mübadiləsini, məlumatların işlənməsini, bəyannamələrin qəbulunu və qeydiyyatını sürətləndirməyə və avtomatlaşdırmağa, sənədlərin sistemdaxili dövriyyəsini tam şəkildə elektron varianta keçirməyə imkan verir. Bütün xidmətləri uzun müddətdir interaktiv formada internet üzərindən həyata keçirən nazirlik artıq sosial şəbəkələrə inteqrasiyanı genişləndirməklə çevik dövlət orqanı olduğunu təsdiq edib, informasiya texnologiyalarını tətbiq edən ən mühüm dövlət strukturu kimi digər təşkilatlar üçün nümunə ola biləcək sistem yaradıb».